1_Layout 1 29.01.2020 10:02 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 2 (568)

31 yanvar 2020-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Yanvarın 22-də Daxili İşlər Nazirliyində 2019-cu ildə cinayətkarlıqla mübarizənin, ictimai qaydanın qorunmasının və ictimai təhlükəsizliyin təmin edilməsinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş Kollegiya iclası keçirilib.**

İclası giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən hüquq-mühafizə siyasəti sayəsində daxili işlər orqanlarında da fəaliyyətin təkmilləşdirilməsi, əldə olunmuş müsbət nəticələrin inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli işlər görülüb. Asayişin, təhlükəsizliyin, insan hüquq və azadlıqlarının qorunması və digər sahələrdə qarşıda duran vəzifələrin, dövlət plan və proqramlarının icrası tam təmin edilib. Ölkəmiz cinayətkarlıqla mübarizənin nəticələrinə görə, ötən il də MDB və Avropa məkanında öncül mövqedə olub, əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı sabit qalaraq 265 fakt təşkil edib.



Hesabat məruzəsi ilə çıxış edən Daxili İşlər naziri deyib ki, 2019-cu ildə əməliyyat-axtarış və istintaq fəaliyyətini həyata keçirən bütün dövlət orqanları üzrə 26.672 cinayət qeydə alınıb. Onların 92 faizi daxili işlər və prokurorluq orqanlarının səlahiyyətləri çərçivəsində istintaqı və təhqiqatı aparılan hüquqazidd əməllər olub. Bu cinayətlərin 89 faizini böyük ictimai təhlükə törətməyən və az ağır növlər təşkil edib.

2018-ci illə müqayisədə qəsdən adamöldürmə 5,4, adam öldürməyə cəhd 23,4, mülkiyyət əleyhinə olan cinayətlər 12, o cümlədən, soyğunçuluq 3,9, quldurluq 2, dələduzluq 24,3, hədə-qorxu ilə tələb etmə 25, avtonəqliyyat vasitəsinin qaçırılması faktları 15,5, habelə xuliqanlıq 13,4, ictimai yerlərdə baş verən cinayətlər 26, yetkinlik yaşına çatmayanların cinayətləri 30,1, əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilən cinayətlər 1,3 faiz azalıb.

Eyni zamanda, ağır və xüsusilə ağır cinayətlərin 87, şəxsiyyət əleyhinə olanların 97, onlardan qəsdən adam öldürmələrin 95, adam öldürməyə cəhdlərin 98, qəsdən sağlamlığa ağır zərər vurmaların 94, xuliqanlıqların 93, mülkiyyət əleyhinə olan cinayətlərin 73,4 faizinin, onlardan oğurluqların 65,4, dələduzluqların 94, soyğunçuluqların 84, quldurluqların 86, hədə-qorxu ilə tələb etmələrin 91, avtonəqliyyat vasitəsini qaçırmaların 81 faizinin, eləcə də prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 329 cinayətin açılması təmin edilib.

Məruzəçi "102" Xidmətinə daxil olan məlumatlar üzrə görülmüş operativ cavab tədbirləri ilə 2039 cinayətin "isti izlərlə" açıldığını, 7556 hüquqazidd əməlin qarşısının alındığını, "Təhlükəsiz şəhər" sisteminin imkanları ilə 575 cinayətin açıldığını vurğulayıb. Həmçinin, təqsirləndirilən şəxslərin məsuliyyətə cəlb edilməsi sahəsində görülmüş tədbirlərlə 3608 nəfərin tutulduğunu diqqətə çatdırıb.

Nazir qeyd edib ki, mütəşəkkil cinayətkarlıqla mübarizə də məqsədyönlü şəkildə həyata keçirilib və hesabat ilində 818 cinayətkar qrup zərərsizləşdirilib. Qeyri-leqal dövriyyədən bütövlükdə 1 ton 231 kiloqram narkotik vasitə çıxarılıb. Qeyri-qanuni kultivasiya edilən 127 tona yaxın çətənə və xaş-xaş kolu aşkarlanaraq məhv edilib.



Ötən il respublikanın hüquq-mühafizə orqanları tərəfindən 31.539 cinayət işindən 81 faizinin istintaqı daxili işlər orqanları müstəntiqləri tərəfindən aparılıb və vətəndaşlara dəymiş 52 milyon manatdan çox maddi ziyanın 92,7 faizi məhz istintaq zamanı ödətdirilib.

General-polkovnik Vilayət Eyvazov qeyd edib ki, xidməti fəaliyyətin prioritet istiqamətlərindən olan vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində ölkə Prezidentinin qarşıya qoyduğu proqram vəzifələrin icrası daim nəzarətdə saxlanılıb və tam yerinə yetirilib. Nazirliyin rəhbərliyi tərəfindən 4405, o cümlədən, kütləvi informasiya vasitələrində qabaqcadan məlumat verilməklə respublikanın 64 şəhər və rayonundan olan 965 vətəndaşın qəbulu həyata keçirilib, qaldırılan məsələlərin əksəriyyəti yerində həll olunub.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hüquq-Mühafizə Orqanları ilə İş Şöbəsinin müdiri Fuad Ələsgərov çıxış edərək Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə hüquqi, demokratik islahatların, böyük infrastruktur layihələrinin, sosialyönümlü proqramların uğurla həyata keçirildiyini diqqətə çatdırıb.

Respublikamızda ictimai-siyasi sabitliyin, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasında daxili işlər orqanları əməkdaşlarının önəmli rolunu, eyni zamanda, aidiyyəti dövlət proqramlarından, Milli Fəaliyyət planlarından irəli gələn vəzifələrin ardıcıllıqla icra olunduğunu, cinayətkarlıqla mübarizə, ictimai təhlükəsizliyin təmini sahələrində uğurlar qazanıldığını qeyd edib. Xidməti fəaliyyətin təkmilləşdirilməsi üçün qanunvericiliyə edilən dəyişikliklərin əhəmiyyəti, yeni informasiya texnologiyalarının tətbiqinin daha geniş şəkildə istifadəsinin vacibliyi nəzərə çatdırılıb.

Məruzə ətrafında çıxış edən Naxçıvan MR-in Daxili İşlər naziri Fazil Ələkbərov, Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidov, Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi İslam Hümbətov, Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi Oqtay Kərimov, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin rəisi Əbülfət Rzayev və başqaları hesabat dövründə görülmüş işlərdən, əldə olunmuş nəticələrdən, eyni zamanda, fəaliyyətdə olan nöqsan və çatışmazlıqların aradan qaldırılması ilə bağlı planlaşdırılan konkret tədbirlərdən danışıblar.

İclasa yekun vuran Daxili İşlər naziri Vilayət Eyvazov 2019-cu ildə əməliyyat-xidməti fəaliyyətdə əldə edilmiş müsbət nəticələrlə bərabər, ayrı-ayrı ərazi orqanlarında ümumi işə mənfi təsir göstərən halların mövcudluğunu nəzərə çatdırıb, tədbir iştirakçılarının diqqətini onların hərtərəfli təhlilinə, aradan qaldırılması yollarına, həmçinin, qarşıda duran vəzifələrə yönəldərək konkret tapşırıq və tövsiyələrini verib.

O da qeyd olunub ki, 2020-ci ildə qarşıda çox mühüm vəzifələr durur. Cinayətkarlığa qarşı mübarizədə, asayişin və daxili təhlükəsizliyin qorunmasında əldə edilmiş müsbət nəticələr inkişaf etdirilməli, şəxsi heyət daha böyük əzmlə çalışmalı, peşəkarlığını yüksəltməlidir.

Cari ildə ölkəmizdə keçiriləcək respublika və beynəlxalq əhəmiyyətli tədbirlərlə bağlı bütün təşkilati işlər vaxtında və yüksək səviyyədə yerinə yetirilməlidir.

Sonda general-polkovnik V.Eyvazov nazirlik sistemində maddi-texniki təminatın, xidmət şəraitinin daha da yaxşılaşdırılması, fəaliyyətin təkmilləşdirilməsi, sosial müdafiə işinin gücləndirilməsi üçün dövlət tərəfindən hərtərəfli köməklik göstərildiyini məmnunluqla qeyd edərək, bu ali diqqətə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya bütün şəxsi heyət adından dərin minnətdarlığını bildirib və əmin edib ki, qanunla müəyyən olunmuş vəzifələr bundan sonra da tam yerinə yetiriləcəkdir.

# Daxili Qoşunların əməliyyat müşavirəsində nazir Vilayət Eyvazov tapşırıqlar verdi

***Yanvarın 16-da Daxili İşlər Nazirliyində Daxili Qoşunların 2019-cu ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş naziryanı əməliyyat müşavirəsi keçirilib.***

Müşavirəni giriş sözü ilə açan Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov dövlət başçımızın ümumən daxili işlər orqanlarına, o cümlədən, onun ayrılmaz tərkib hissəsi olan Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatının, kazarma-məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

**Nazir qoşunların daxili sabitliyin qorunmasında xüsusi xidmətləri olduğunu diqqətə çatdıraraq şəxsi heyətin ictimai asayişin və təhlükəsizliyin təminində, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirakını, yüksək peşəkarlığa, döyüş və mənəvi-psixoloji hazırlığa malik bir quruma çevrildiyini məmnunluqla bildirib.**



Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov xidməti-döyüş fəaliyyətinin yekunları barədə geniş məruzə ilə çıxış edib.

Komandan ötən il normativ-hüquqi bazanın təkmilləşdirilməsinin, təlimlərin real döyüş şəraitinə uyğunlaşdırılmasının, şəxsi heyətin nəzəri biliklərinin artırılmasının, onlara peşəkar praktiki vərdişlərin aşılanmasının, mənəvi-psixoloji və fiziki hazırlıq səviyyəsinin yüksəldilməsinin döyüş təliminin əsas vəzifələri olaraq həyata keçirildiyini diqqətə çatdırıb.

**Müşavirəyə yekun vuran Daxili İşlər naziri V.Eyvazov şəxsi heyətin xidməti fəaliyyətinin yekunlarını yüksək qiymətləndirib, qarşıda duran vəzifələrdən danışıb, onların həlli yollarını göstərib, konkret tapşırıq və tövsiyələrini verib.**

**Hərbi hissələrdə idarəçilik fəaliyyətinin, döyüş xidmətinin təşkili və aparılmasını, hərbi qulluqçuların Vətənə və xalqa sədaqət ruhunda tərbiyə edilmələrini, fiziki və döyüş hazırlığının daha da yüksəldilməsini, ekstremal hallar da daxil olmaqla, onların istənilən əmr və göstərişlərin icrasına hər zaman hazır olmalarını tələb edən nazir, əmin olduğunu bildirib ki, Daxili Qoşunların hərbi qulluqçuları qanunvericiliklə müəyyən edilmiş vəzifələrin və verilən tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcəklər.**

**DİN-in Mətbuat xidməti**

2 - 2_Layout 1 29.01.2020 17:53 Page 1



# “2019-cu ildə Daxili Qoşunlarda xidməti-döyüş fəaliyyətinin yekunları”na dair Hərbi Şuranın iclası keçirilib

***“Daxili İşlər Nazirliyinin vahid sisteminin mühüm struktur qurumlarından biri olan Daxili Qoşunlar tərəfindən ötən il ərzində qarşıya qoyulmuş tapşırıqlar və müəyyən edilmiş vəzifələr tam həcmdə yerinə yetirilib”.***




Yanvarın 16-da Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsində “2019-cu ildə Daxili Qoşunlarda xidməti-döyüş fəaliyyətinin yekunları”na dair Hərbi Şuranın iclası keçirilib.

Hərbi Şuranın sədri, Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov iclası açıq elan edərək bildirib ki, 2019-cu il ölkəmizin tarixinə islahatlar və dinamik inkişaf ili kimi yazılıb. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən çoxşaxəli islahatlar kursu dövlət qurumlarının işinin təkmilləşdirilməsi, xalqımızın sosial rifah halının yüksəldilməsi, dayanıqlı iqtisadi inkişafın qorunub saxlanılması, ölkəmizin hərbi potensialının möhkəmləndirilməsi, ictimai sabitliyin təmin edilməsi və beynəlxalq aləmdə mövqelərimizin daha da güclənməsinə etibarlı zəmin yaratmışdır.

Sonra Daxili Qoşunlar komandanının 1-ci müavini-Qərargah rəisi general-mayor Tofiq Hüseynov məruzə ilə çıxış edərək söyləyib ki, Daxili İşlər Nazirliyinin vahid sisteminin mühüm struktur qurumlarından biri olan Daxili Qoşunlar tərəfindən ötən il ərzində qarşıya qoyulmuş tapşırıqlar və müəyyən edilmiş vəzifələr tam həcmdə yerinə yetirilib. Bir sıra mühüm beynəlxalq ictimai və idman tədbirlərində Daxili Qoşunların şəxsi heyəti polis əməkdaşları ilə birlikdə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində fəal iştirak edib, müəyyən edilmiş tapşırıqlar layiqincə və keyfiyyətlə icra olunub.

Xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunan şəxsi heyətə tədbirlərin əhəmiyyəti və mahiyyəti, qanunçuluq, vətəndaşların hüquq və azadlıqlarının qorunması prinsipləri izah olunub, hər bir hərbi qulluqçunun vəzifə borclarının icrasına məsuliyyətlə yanaşmasının vacibliyi vurğulanıb.

Bildirilib ki, 2019-cu il ərzində təlim Direktivinin tələbləri tam və keyfiyyətlə yerinə yetirilməklə hərbi qulluqçuların komandir, ixtisas, atəş və fiziki hazırlıq səviyyəsinin yüksəldilməsi təmin edilib, bununla da hissə və bölmələrin döyüş hazırlığının, şəxsi heyətin nəzəri biliklərinin və praktiki bacarıqlarının artırılmasına, peşəkarlıq vərdişlərinin təkmilləşdirilməsinə nail olunub. Maddi-texniki tədris bazasının inkişaf etdirilməsi də prioritet məsələlərdən olub.

Daxili İşlər nazirinin müvafiq əmrinin icrası ilə əlaqədar 2019-cu il ərzində zona bölgüsünə əsasən polis orqanlarının şəxsi heyətilə sıra hazırlığı və xüsusi vasitələrin tətbiqi qaydalarının öyrədilməsi, bu sahədə praktiki təcrübənin və peşəkarlığın artırılması məqsədilə təlim məşqləri keçirilib. Təlimlərdə sıra hazırlığı üzrə, xüsusi vasitələrlə hərəkət üsulları, onların təyinatı, istifadə və təhlükəsizlik qaydaları öyrədilib, nümunəvi-göstərici məşğələ keçirilib.

Hesabat dövründə Bakı qarnizonu hərbi hissələrinin komandanlıqlarının iştirakı ilə “İctimai qaydanın qrup halında pozulmasının qarşısının alınması və ictimai təhlükəsizliyin təmin olunması üzrə xüsusi əməliyyatda xüsusi vasitələrin tətbiqi dəstələrinin, əsas və köməkçi idarəetmə məntəqələrinin fəaliyyəti” və “Cinayət törətmiş silahlı şəxsin (şəxslərin) tutulması və zərərsizləşdirilməsi üzrə xüsusi əməliyyatda xüsusi təyinatlı dəstənin, əsas, köməkçi idarəetmə məntəqələrinin fəaliyyəti” mövzularında komanda-qərargah təlimləri keçirilib. Təlimlərin əsas məqsədi əməliyyatların planlaşdırılmasının, düzgün qərar qəbul edilməsi bacarıqlarının, habelə idarəetmə məntəqələrinin fəaliyyətinin təkmilləşdirilməsi olub. Bununla yanaşı, Daxili Qoşunların və polis orqanlarının fəaliyyətlərinin təkmilləşdirilməsi, yaşayış məntəqəsində silahlı cinayətkar qrupun zərərsizləşdirilməsi üzrə xüsusi əməliyyatların planlaşdırılması və keçirilməsi, müxtəlif şəraitlərdə bölmələrin fasiləsiz idarə olunmasında hərtərəfli təminatın təşkili, bu istiqamətlərdə komandir heyətinin bacarıqlarının artırılması məqsədilə Əlahiddə Çevik Polis Alayının əməkdaşları ilə birgə 99713, 67987 saylı hərbi hissələrin xüsusi təyinatlı dəstələri və 17077 saylı hərbi hissənin helikopter ekipajı cəlb edilməklə, Daxili Qoşunların Təlim mərkəzində “Yaşayış məntəqəsində silahlı cinayətkar qrupun zərərsizləşdirilməsi üzrə xüsusi təyinatlı dəstənin fəaliyyəti” mövzusunda xüsusi-taktiki təlim və nümunəvi-göstərici atışlar keçirilib. Azərbaycan Respublikasının Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov tərəfindən təlimə yekun vurulub və Daxili Qoşunların fəaliyyəti yüksək qiymətləndirilib.

Şəxsi heyətlə tərbiyə işi qanunçuluğun və hərbi intizamın möhkəmləndirilməsinə, xəsarətalma hallarının və nizamnamədənkənar münasibətlərin qarşısının alınmasına, komandir və rəislərin şəxsi nümunəliyinin təmin olunmasına, kollektivlərdə sağlam mənəvi-psixoloji mühitin yaradılmasına və hərbi qulluqçuların ictimai-siyasi hazırlıq üzrə biliklərinin artırılmasına yönəldilib. Bu məqsədlə qoşunlarda hərbi intizamın vəziyyəti və aparılan tərbiyə işi tədbirləri nəzarətə götürülüb, bu istiqamətdə müvafiq göstəriş və tövsiyələr verilib.



Bundan əlavə, respublikada baş verən ictimai-siyasi hadisələrin təhlili diqqət mərkəzində saxlanılıb, şəxsi heyət tərəfindən Milli Lider Heydər Əliyevin zəngin siyasi irsinin öyrənilməsinə önəm verilib, ictimai-siyasi hazırlıq məşğələlərində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin genişməzmunlu çıxışlarının öyrənilməsi davam etdirilib.

Komandir və rəis heyətinin iş sistemində hərbi qulluqçuların mənəvi-psixoloji keyfiyyətləri, hərbi xidmətə münasibətləri, ailə vəziyyətləri, tələb və ehtiyacları, mənəvi və işgüzar keyfiyyətləri dərindən öyrənilib və xidmətkeçmə dövründə mütəmadi olaraq qiymətləndirilib.

Görülmüş işlərin nəticəsində ötən ilin müvafiq dövrü ilə müqayisədə ölüm hallarının, cinayətlərin və kobud intizam pozuntularının sayında azalma müşahidə olunub.

Ötən il ərzində qoşunların beynəlxalq əlaqələrinin inkişafı da diqqət mərkəzində olub. 2019-cu ilin yanvar-dekabr aylarında 92 nəfər hərbi qulluqçunun və 9 nəfər daxili işlər orqanları əməkdaşının Türkiyə, Belçika, Qazaxıstan, Rusiya, Fransa, İsveçrə və Belarusda müxtəlif istiqamətlər üzrə tədbir və kurslarda iştirak etmələri təmin olunub. Bundan əlavə, ayrı-ayrı beynəlxalq qurumların və şirkətlərin nümayəndələri, xarici ölkələrin hərbi attaşeləri ilə qoşunlarda görüşlər keçirilib, əməkdaşlıq məsələləri müzakirə olunub.

Ötən 2019-cu ildə Daxili Qoşunlarda maddi-texniki bazanın möhkəmləndirilməsi ilə bağlı tədbirlər ardıcıllıqla davam etdirilib, şəxsi heyətin kazarma-məişət şəraiti müasir standartlara uyğunlaşdırılıb, hərbi qulluqçuların zəruri tələbatları təminat normalarına uyğun təmin olunub, tələb olunan texnika və avadanlıqların alınması həyata keçirilib. Qoşunların maddi-texniki təminatının əsas istiqamətləri qarşıda duran vəzifələrin və xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi üçün tələb olunan vasitələrlə hərbi hissələrin təmin edilməsinə yönəldilib.

Bir çox hərbi hissədə hərbi və məişət obyektlərinin təmiri aparılıb, lazımi avadanlıqlarla təmin edilərək yenidən istifadəyə verilib.

Daha sonra bir sıra hərbi hissə komandirləri və hərbi hissə komandirlərinin tərbiyə işləri üzrə müavinləri çıxış edib. 2019-cu ildə Daxili Qoşunlarda xidməti-döyüş fəaliyyətinin yekunlarına görə fərqlənən 12565, 99713, 12576 saylı hərbi hissələrin komandirləri Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanının müvafiq əmri ilə “Fərman”la mükafatlandırılıblar.

Sonda Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanı tədbirə yekun vuraraq, 2020-ci ildə döyüş hazırlığının daim yüksək saxlanılması, hərbi qulluqçuların peşə hazırlığının artırılması, hərbi hissə və bölmələrdə sağlam mənəvi-psixoloji mühitin təmin olunması ilə əlaqədar vəzifələri müəyyən edib.

2020-ci il ərzində keçiriləcək mühüm dövlət və ictimai tədbirlərdə, beynəlxalq əhəmiyyətli yarışlar zamanı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunmasında şəxsi heyət fəallıq göstərəcək, qarşıya qoyulan tapşırıqları keyfiyyətlə icra edəcək, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısına cavab olaraq, Daxili İşlər nazirinin əmr və göstərişlərindən irəli gələn vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək, polis orqanlarının əməkdaşları ilə birgə ölkədə sabitliyin və ictimai asayişin keşiyində mətinliklə dayanacaq.

**Mətbuat xidməti**

# DAXİLİ QOŞUNLARIN KOMANDANI VETERANI 60 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ TƏBRİK EDİB

Yanvarın 24-də Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov Daxili Qoşunların veteranı, ehtiyatda olan polkovnik-leytenant Əkbər Hüsiyevi 60 illik yubileyi münasibətilə təbrik edib. Yubilyarı Daxili Qoşunların Baş İdarəsində qəbul edən general-leytenant Ş.Məmmədov onun şərəfli hərbi xidmət yolu keçdiyini, qoşunların formalaşması və inkişafında təqdirəlayiq əməyinin olduğunu vurğulayıb. Bildirilib ki, Ə.Hüsiyev Ağdam, Zəngilan və Füzuli rayonlarının müdafiəsi uğrunda döyüşlərdə iştirak edərək yaralanıb. Ləyaqətli komandir, peşəkar və vətənpərvər zabit kimi müharibə sınaqlarından alnıaçıq çıxaraq, döyüşən şəxsi heyətə nümunə olub.



Qeyd olunub ki, Ə.Hüsiyev ictimai təhlükəsizliyin qorunması yönündə üzərinə düşən xidməti tapşırıqların yerinə yetirilməsində də əzmkarlıq göstərib. O, Daxili Qoşunların Baş İdarəsi və hərbi hissələrində məsul vəzifələrə təyin olunaraq, Komandanlıq tərəfindən ona göstərilən etimadı layiqli xidmətilə doğruldub. Təcrübəli və səriştəli zabit olaraq qoşunların şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə nəzərəçarpan töhfələr verib.

Daxili Qoşunların komandanı Ə.Hüsiyevin hərbi xidmət müddətində bir sıra mükafatlara layiq görüldüyünü xatırladaraq, onun kimi veteranların hərbi xidmət yolunun bu gün qoşunların sıralarında xidmət edən zabitlərə örnək olduğunu bildirib.

General-leytenant Ş.Məmmədov veteranların qoşunların şəxsi heyətilə təmaslarının vacibliyini, onların təcrübəsindən təlim-tərbiyə prosesində məqsədyönlü istifadə olunmasının zəruriliyini, veteran həmrəyliyinin möhkəmləndirilməsinin əhəmiyyətini qeyd edib.

O, Ə.Hüsiyevi yubileyi münasibətilə təbrik edərək, dövlətçiliyimizə, hərbi anda sədaqətinə, Daxili Qoşunların veteranı adını uca tutmasına görə minnətdarlığını bildirib, hörmətli veterana möhkəm cansağlığı, ailə səadəti və işlərində uğurlar arzulayıb.

Ə.Hüsiyev yubileyi münasibətilə onu qəbul etdiyinə və ünvanına söylədiyi xoş sözlərə görə Daxili Qoşunların komandanına təşəkkürünü bildirib. O, qoşunların qəhrəmanlıq ənənələrinin ictimaiyyət arasında təbliğ olunması və şəxsi heyətin hərbi-vətənpərvərlik tərbiyəsi işində veteran olaraq bundan sonra da öz fəaliyyətini əsirgəməyəcəyini vurğulayıb.

Sonda Daxili Qoşunların komandanı yubilyara hədiyyə təqdim edib və xatirə şəkli çəkdirilib. Görüşdə Daxili Qoşunların Veteranlar şurasının sədri Çingiz Daşdəmirov da iştirak edib.

**Mətbuat xidməti**

# 9 FEVRAL MİLLİ MƏCLİSƏ SEÇKİLƏR GÜNÜDÜR

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 18 iyun 2013-cü il tarixli müvafiq Qərarı ilə təsdiq edilmiş “Hərbi qulluqçuların seçkilərdə (referendumda) iştirakına dair Təlimat”da qeyd olunduğu kimi, Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) hərbi qulluqçuların iştirakı və hərbi hissələrdə seçki məntəqələrinin yaradılması, həmin məntəqələrin seçki komissiyalarının fəaliyyəti qaydaları Azərbaycan Respublikası Konstitusiyasının 56-cı, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 12.1-ci, 13.1-ci, 14.2.1-ci, 35.5-ci, 36.7-ci, 46.6-cı, 46.9-cu, 47.3-cü, 104-cü maddələri, həmçinin, “Hərbi qulluqçuların statusu haqqında” Azərbaycan Respublikası Qanununun 6.1-ci maddəsi və bu Təlimatla tənzimlənir.

Təlimatın 1.2-ci maddəsində hərbi qulluqçuların Azərbaycan Respublikasının digər vətəndaşları kimi aktiv və passiv seçki hüququnun olduğu, eləcə də bu hüquqları həyata keçirərkən onlarla eyni hüquq və vəzifələrə malik olmaları göstərilib.

Həmçinin, təlimatın 3-cü maddəsində yaşayış məntəqələrindən kənarda yerləşən hərbi hissələrdə seçki məntəqələrinin yaradılması barədə tələblər də öz əksini tapıb.

Bundan əlavə, təlimatın 4-cü maddəsində hərbi hissə ərazilərində seçki məntəqələrinin yaradılması və səsvermənin təşkilinə dair tələblər maddənin müvafiq bəndlərinə uyğun qeyd olunub.

Məlumat üçün qeyd edək ki, bu il fevralın 9-da ölkəmizdə keçiriləcək Milli Məclisə seçkilərlə əlaqədar, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında da müvafiq qanunvericiliyin tələblərinə uyğun tədbirlər planlaşdırılaraq, icrası nəzarətə götürülüb.

Belə ki, Azərbaycan Respublikasının Daxili İşlər nazirinin təsdiq etdiyi 30 dekabr 2019-cu il tarixli “2020-ci il fevral ayının 9-da Azərbaycan Respublikasının Milli Məclisinə keçiriləcək seçkilərlə əlaqədar asayişin mühafizəsi, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsinə dair tədbirlər planı”nda, eləcə də bununla əlaqədar xidmətin aparılmasının gücləndirilmiş variantda təşkil edilməsi ilə bağlı Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanının müvafiq göstərişində və Daxili Qoşunlar komandanının müavini-Şəxsi heyət üzrə İdarə rəisi tərəfindən təsdiq olunmuş “DİN-in Daxili Qoşunlarında Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərə hazırlıq və keçirilməsi dövrü üçün tədbirlər planı”nda müvafiq idarə, şöbə və xidmətlər, o cümlədən, vəzifəli şəxslər tərəfindən həyata keçiriləcək vəzifələr müəyyən edilib.



Qeyd edək ki, seçkilərə hazırlıq dövründə və keçirilməsi zamanı Daxili Qoşunların Baş İdarəsində, Ali Hərbi Məktəbdə və hərbi hissələrdə döyüş hazırlığının, sayıqlığın artırılması, yüksək nizam-intizamın və ictimai qaydaların qorunmasının təmin edilməsi, xidmətin təşkilinə nəzarətin gücləndirilməsi, həmçinin, tərbiyə işinin mövcud üsullarından istifadə etməklə, hərbi qulluqçularla müvafiq plana uyğun mövzular üzrə məşğələlərin keçirilməsi də məhz bu qəbildəndir.

**Mətbuat xidməti**

3_Layout 1 29.01.2020 17:44 Page 1



# ŞİMAL BÖLGƏSİNDƏ SABİTLİYİN VƏ İCTİMAİ TƏHLÜKƏSİZLİYİN KEŞİYİNDƏ DAYANAN HƏRBİ HİSSƏ

**Daxili Qoşunların 16073 saylı hərbi hissəsində xidmətin yüksək səviyyədə təşkil olunub aparılması üçün hər bir şərait yaradılıb. Şəxsi heyət üzrə İdarənin məqsədli qrupunun tərkibində hərbi hissəyə xidməti ezamiyyətim zamanı hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlığı, o cümlədən, maddi-texniki təchizatı ilə yaxından tanış oldum. Hərbi şəhərcikdə aparılan abadlıq və yenidənqurma işləri hərbi qulluqçuları qarşıya qoyulmuş tapşırıqları layiqincə yerinə yetirməyə ruhlandırır.**

Hərbi hissə komandiri polkovnik Sahib Məmmədovla söhbət zamanı bildirdi ki, şəxsi heyət dislokasiya yerinin xüsusiyyətləri nəzərə alınaraq fəaliyyət göstərir, ictimai təhlükəsizliyi təmin edir, qarşıya qoyulmuş istənilən tapşırığı icra etməyə hazırdır: “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanının və Daxili İşlər Nazirliyinin rəhbərliyinin xüsusi diqqət və qayğısı nəticəsində yenidən qurulan və günü-gündən abadlaşan müasir hərbi şəhərcik, eləcə də hərbi qulluqçuların mənzil-məişət və kazarma şəraiti, o cümlədən, maddi-texniki təminatı yüksək səviyyədədir. Bütün bunlar da, öz növbəsində, şəxsi heyətin məsuliyyətini artırır və onları göstərilən etimadı nümunəvi xidmətləri ilə doğrultmağa sövq edir”.

Bölüklərdə olarkən burada hökm sürən səliqə-sahman, eləcə də sanitar-gigiyenik qaydalara ciddi riayət olunması xüsusilə diqqətimi çəkdi. Şəxsi heyətin əhval-ruhiyyəsi də yüksəkdir.

Hərbi hissənin xüsusi təyinatlı dəstəsi və xüsusi vasitələrin tətbiqi dəstəsi yüksək döyüş hazırlığı, nizam-intizamı, həmçinin, nümunəvi xidməti ilə fərqlənən bölmələrdir.





### XÜSUSİ TƏYİNATLI DƏSTƏNİN “BƏBİR”LƏRİ XİDMƏTDƏ DÖZÜMLÜLÜK NÜMAYİŞ ETDİRİRLƏR

Xüsusi təyinatlı dəstənin əsas vəzifələri istər silahlı cinayətkarların axtarılması, tutulması və zərərsizləşdirilməsi, istər ictimai təhlükəsizliyin pozulması, istərsə də təbii fəlakətlər zamanı qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə daim hazır olmaqdır. Bu isə hər bir xüsusi təyinatlıdan, ilk növbədə, yüksək döyüş hazırlığı, möhkəm hərbi intizam və “dəmir” iradə tələb edir. Bu mənada hərbi hissənin “Bəbir” şərti adı verilmiş xüsusi təyinatlı dəstəsinin hərbi qulluqçuları xidmətdə sayıqlıq və əzmkarlıq nümayiş etdirirlər.

Dəstə komandirinin vəzifəsini müvəqqəti icra edən mayor Şamo İbrahimovun sözlərinə görə, dəstə hər an qarşıya çıxa biləcək qəfləti tapşırıqları uğurla yerinə yetirməyə qadirdir. Artıq 19 ildir ki, hərbi xidmətdə olan mayor Ş.İbrahimov vəzifə borclarından irəli gələn tələblərdən danışdı, hava şəraitindən asılı olmayaraq, şəxsi heyətlə təlim-məşq proseslərinin davamlı olaraq keçirildiyini bildirdi. Qeyd etdi ki, hərbi qulluqçuların döyüş təlimi Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Əsas diqqət atəş və fiziki hazırlıqları ilə yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığı, düzgün dünyagörüşlərinin formalaşması da əsas məqamlardandır. Mayor Ş.İbrahimovun sözlərinə görə, hər bir hərbi qulluqçunun fərdi hazırlığı diqqətdə saxlanılır: “Şəxsi heyətin real şəraitə uyğun operativ şəkildə qərar qəbul etmək bacarığı qiymətləndirilir. Məşğələlərin əsas hissəsi dağ-meşə, çöl şəraitində təşkil olunub keçirilir. Bundan əlavə, şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasına və fiziki hazırlıq məşğələlərinə üstünlük verilir”.

O, həmçinin, vurğuladı ki, ayda bir dəfə olmaqla, iki-üç gün ərzində qəflətən qarşıya çıxa biləcək tapşırıqların yerinə yetirilməsinə, xüsusən praktiki vərdişlərin təkmilləşdirilməsinə yönəlik “Dəstə reyd fəaliyyətində” məşğələsi keçirilir. Silahlı cinayətkarların axtarılması və zərərsizləşdirilməsi üzrə praktiki fəaliyyətə üstünlük verilir. Təlim və məşğələlərin vaxtında müasir metod və üsullarla keçirilməsi hərbi qulluqçuların döyüş qabiliyyətinin artırılmasına xidmət edir.



Şəxsi heyət arasında yüksək döyüş hazırlığı və intizam nümayiş etdirən hərbi qulluqçulardan baş leytenant Əhməd İsmayılovun, gizir Emil İsgəndərovun, baş çavuşlar Sahib Məmmədov, Nurlan Abbasov və Samir Quliyevin xidməti təqdirəlayiqdir.

### XÜSUSİ VASİTƏLƏRİN TƏTBİQİ DƏSTƏSİNDƏ QABAQCIL BÖLMƏ

Hərbi hissənin nümunəvi fəaliyyəti ilə fərqlənən bölmələrindən biri də xüsusi vasitələrin tətbiqi dəstəsidir. Xüsusi vasitələrin tətbiqi dəstəsinin tərkibindəki bölmələrin öz xüsusiyyətləri var. Bu bölmələrdən birinin xidmətilə daha yaxından tanış oldum.





“Bölmənin döyüş hazırlığının yüksəldilməsi üçün şəxsi heyətin döyüş təliminin metodiki cəhətdən düzgün keçirilməsi, mənəvi-psixoloji durumun yüksək olması, hərtərəfli təminatın mövcudluğu qarşıya qoyulan tapşırıqların dəqiq və vaxtında yerinə yetirilməsinə zəmin yaradır. Bölməyə təhkim olunmuş döyüş texnikasının, sursatların və əmlakların vəziyyətinin daima diqqətdə saxlanılması, daxili qayda-qanuna riayət edilməsi də olduqca vacibdir”.

Bu sözləri xüsusi vasitələrin tətbiqi dəstəsində bölmə komandiri kapitan Alim Məmmədov dedi. Bildirdi ki, bölmə qarşıya qoyula biləcək tapşırıqların keyfiyyətlə və vaxtında icrasına hər zaman hazırdır.

Şəxsi heyətin döyüş hazırlığının artırılması məqsədilə, tərtib olunmuş məşğələ cədvəlinə əsasən, hərbi qulluqçularla sıra hazırlığı, fiziki hazırlıq, Daxili Qoşunların taktiki hazırlığı, atəş hazırlığı, taktiki hazırlıq, ictimai-siyasi hazırlıq və ixtisas hazırlığından məşğələlər təşkil olunur. Məşğələlər zamanı tədris olunan mövzuların hərbi qulluqçular tərəfindən dərindən mənimsənilməsinə xüsusi diqqət yetirilir.

Bölmədə xidmətində fərqlənən hərbi qulluqçulardan gizir Fərid Baxşıyev, baş çavuş Şəhriyar Məmmədli, baş əsgər Fərid Abdurahmanov və əsgər Xaləddin Məmmədlinin adlarını qeyd edə bilərik.

Qeyd olunanlar onu deməyə əsas verir ki, hərbi xidmətdə daim əzmkarlıq və nümunə göstərməyi bacaran şəxsi heyət bundan sonra da üzərinə düşən vəzifələri uğurla icra edəcək, əldə edilən müsbət nəticələri qoruyub saxlayacaqdır.

**baş leytenant Nigar Ağayeva**

# UÇUŞLARA RƏHBƏRLİK QRUPUNUN ŞƏXSİ HEYƏTİ PEŞƏKARLIĞI İLƏ SEÇİLİR

Məlumdur ki, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı şəxsi heyətin, eləcə də maddi vəsaitlərin əməliyyat yerinə vaxtlı-vaxtında daşınması olduqca zəruridir. Bu baxımdan qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsində Daxili Qoşunların Helikopter Eskadriliyasının rolu əvəzolunmazdır. Xüsusi həmlə, paraşüt-desant və xilasetmə qrupları ilə birgə fəaliyyətlər, havadan axtarış-xilasetmə işlərinin aparılması, şəxsi heyətin havadan dəstəklənməsi, yaralı və xəsarət alanların təxliyyəsi Helikopter Eskadriliyasının əsas vəzifələrindəndir.

Bu gün şəxsi heyət qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlir, desək, yanılmarıq. Hərbi qulluqçular peşə hazırlığının daha da artırılması istiqamətində hər zaman əzmlə çalışır, istifadədə olan helikopterlərin daima uçuşa hazır, saz vəziyyətdə saxlanılmasını təmin edirlər. Hərbi hissə özünün savadlı, nizam-intizamlı hərbi qulluqçuları ilə də fərqlənir. Onlardan biri baş leytenant Ayaz Mikayılovdur.



O, 1989-cu il iyul ayının 20-də Bakı şəhərində doğulub. 2007-ci ildə Bakı şəhərindəki 275 saylı tam orta məktəbi bitirib. 2007-2011-ci illərdə Milli Aviasiya Akademiyasında ali təhsil alıb. 2011-2013-cü illərdə Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Daxili Qoşunlarda xidmətə başlayanadək 2013-2015-ci illərdə Heydər Əliyev adına Hava Limanında Aviasiya Təhlükəsizliyi Xidmətində uçuşların təhlükəsizliyinin təmini üzrə mütəxəssis işləyib. 2015-ci ilin oktyabr ayından Daxili Qoşunların 17077 saylı hərbi hissəsində xidmət edir. 2019-cu ildən uçuşlara rəhbərlik qrupunun rəisidir.

Qrup rəisi baş leytenant A.Mikayılov uçuşlar zamanı uçuşlarda iştirak edən bütün şəxsi heyətin rəisi hesab olunur. O, uçuşdan bir gün əvvəl tapşırıqlar alır. Uçuşların yerinə yetirilməsi üçün plan-cədvəlin tərtib olunmasında yaxından iştirak edir, eyni zamanda, uçuş heyətilə məşqlər keçirir.

Baş leytenant A.Mikayılov bildirdi ki, qrup öz işini uçuşların aparılması haqqında müvafiq təlimat və əsasnamələrin tələblərinə əsasən təşkil edir. Uçuşlar zamanı start komanda məntəqəsində 3 qrup birgə fəaliyyət göstərir ki, onlardan biri və önəmlisi uçuşlara rəhbərlik qrupudur. Uçuşlara rəhbərlik qrupu işini Aviasiya-meteoroloji və Dispetçer xidmətləri ilə birgə qurur. Uçuşdan öncə tapşırığın həyata keçirildiyi ərazi üzrə hava şəraiti ətraflı öyrənilir, rabitə vasitələrinin sazlığı yoxlanılır. Eyni zamanda, uçuşdan öncə hər bir hərbi qulluqçunun tibbi müayinədən keçirilməsi təmin olunur.

Sonra uçuş günü aidiyyəti qurumlardan icazə və uçuş şərtləri alınır. Ardınca uçuşların idarə edilməsinə başlanılır.

Baş leytenant A.Mikayılov onu da söylədi ki, uçuş zamanı heyətlə rabitə vasitələri ilə əlaqə saxlayır və ehtiyac yarandıqda təlimata uyğun ekipaja köməklik göstərilməsi təmin olunur. Həmçinin, tapşırıqların yerinə yetirilməsində nöqsanlar olarsa, onların qeydiyyatını aparır. Həmin nöqsanlar uçuşun sonunda keçirilən müşavirədə müzakirə edilir və gələcəkdə onların təkrarlanmaması üçün konkret tapşırıqlar verilir. Lazım gələrsə, bu istiqamətdə əlavə nəzəri və praktiki məşğələlər hazırlanıb keçirilir.

**baş leytenant Xədicə Hacızadə**

# HƏRBİ HİSSƏNİN NÜMUNƏVİ XİDMƏTİLƏ FƏRQLƏNƏN TİBB PERSONALI...

Hərbi hissələrdə xidmətin keyfiyyətlə yerinə yetirilməsində, şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında tibb personalının fəaliyyəti danılmazdır. Bu məqsədlə hərbi hissələrdə davamlı olaraq müalicəvi-profilaktik tədbirlər həyata keçirilməkdədir.

25033 saylı hərbi hissənin tibb personalı da vəzifə borcuna məsuliyyətlə yanaşır, qarşıya qoyulmuş tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir. Hərbi hissənin tibb xidməti rəisi tibb xidməti mayoru Elşən Cumıyev şəxsi heyətin tibbi təminatını həyata keçirir. Tabeliyindəki şəxsi heyətə qarşı tələbkar olan xidmət rəisi, eyni zamanda, onlardan diqqət və qayğısını da əsirgəmir. O, hərbi hissədə müalicə-profilaktika, sanitariya-gigiyena tədbirlərinin həyata keçirilməsinə, xəstə hərbi qulluqçulara vaxtlı-vaxtında lazımi tibbi yardımın göstərilməsinə cavabdehlik daşıyır.

Tibb xidməti mayoru E.Cumıyev bildirdi ki, gündəlik olaraq xidmət öz işini hissə komandiri tərəfindən təsdiq olunmuş plana əsasən təşkil edir. Öncə xidmət daxilində müşavirə keçirilir. Müşavirə zamanı gün ərzində görüləcək işlərin bölgüsü aparılır, hər bir hərbi qulluqçuya aidiyyəti üzrə tapşırıqlar verilir. Tibb xidmətinin hərbi qulluqçuları - tibb məntəqəsində feldşer gizir İqbal Şirvanov, tibb məntəqəsində sanitar-təlimatçı dezinfektorlar baş çavuş Rəşad Sultanov və baş çavuş Hakim Muradlı, o cümlədən, mülki həkim terapevt Səbinə Salahova və aptek rəisi Aydın Həsənov qoyulan tapşırıqları uğurla və vaxtında icra edirlər.



Mülki həkim terapevt Səbinə Salahova ambulator xəstələrin qəbulunu, onlara yardım göstərilməsini, təyinatların icrasına nəzarəti, həmçinin, xəstələrin tibb kitabçalarında qeydiyyatların aparılmasını həyata keçirir. Eyni zamanda, stasionar xəstələrə nəzarət edir, təyinatların verilməsini, onların vaxtlı-vaxtında yerinə yetirilməsini diqqətdə saxlayır, ehtiyacı olan xəstələrin daha dərin müayinəsi məqsədilə Daxili Qoşunların Hərbi Qospitalına göndərilməsini təmin edir.

Tibb xidmətində feldşer gizir İqbal Şirvanov xəsarət alanlara, təxirəsalınmaz həkim nəzarəti altında xəstələrə yardım göstərir, əczaxanadan alınan dərmanların saxlanılmasına, tibbi avadanlıqların düzgün istifadəsinə və saz vəziyyətdə olmasına, həmçinin, onların sterilizasiyasına daim diqqət yetirir, xidməti sənədlərin vaxtlı-vaxtında və düzgün icrasını həyata keçirir.

Xidmət rəisi hərbi hissədə sanitar-gigiyenik vəziyyətin də qənaətbəxş olduğunu və hər zaman nəzarətdə saxlanıldığını sözlərinə əlavə etdi. Söylədi ki, tibb məntəqəsində sanitar-təlimatçı dezinfektorlar baş çavuş Rəşad Sultanov və baş çavuş Hakim Muradlı həftə ərzində əsgər kazarmalarında, bölmələrdə, qarovul məntəqəsində, qərargah binasında mütəmadi olaraq dezinfeksiya işləri aparır, tibb məntəqəsinin daxili təmizliyinin qorunub saxlanılmasına ciddi nəzarət edirlər.

Personalın digər üzvü - mülki işçi, aptek rəisi Aydın Həsənov isə bölmələri tibbi preparatlarla fasiləsiz təmin edir.

Tibb xidməti mayoru E.Cumıyev onu da vurğuladı ki, tibb xidməti tərəfindən gün ərzində qarovul xidmətinə, eləcə də hissənin digər naryad növlərinə cəlb olunmuş şəxsi heyətin tibbi müayinəsi aparılır. Sağlamlığında problem aşkar olunan hərbi qulluqçu dərhal xidmətdən azad edilir, ona hərtərəfli yardım göstərilir, ehtiyac yarandıqda tibb məntəqəsinə ambulator müalicəyə götürülür.

Tibb xidməti tərəfindən həyata keçirilən profilaktik tədbirlər şəxsi heyətin səhhətinin etibarlı əllərdə olduğunu deməyə əsas verir.

**baş leytenant Xədicə Hacızadə**

4_Layout 1 29.01.2020 16:59 Page 1



*Şəhidlərimiz*

## DÖYÜŞ SINAĞINDA KÖKSÜNÜ DÜŞMƏN GÜLLƏSİNƏ SİPƏR ETDİ...

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş hərbi qulluqçularının siyahısında əksəriyyəti əsgərdir. 18-20 yaşlı bu gənclərin o dövrdə üzləşdikləri ağır sınaqları dolğun ifadə etməkdə bəzən sözlər də aciz qalır. Onlar müharibəni bədii filmlərdə görmüş, bu haqda babalarının söhbətlərini eşitmiş, orta məktəbdə oxuduqları kitablardan və tarix dərslərində müəllimlərindən müəyyən biliklər əldə etmişdilər. Ancaq real müharibə kinoda göstəriləndən, kitabda yazılandan, söhbətlərdə danışılandan daha sarsıntılı olur. Müharibənin ağrı-acısını şəxsən yaşamaq, onun dəhşətlərini uzaq diyarlarda deyil, doğma Vətənində görmək, döyüş meydanında yoldaşlarını itirmək, atəş hədəfində olmaq, düşmən gülləsi və mərmisinə sinəsini sipər etmək bu gənc, ürəkləri həyat eşqi ilə döyünmüş, qəlblərində arzular məskən salmış döyüşçülərin taleyinə yazılmışdı. Bu qeyrətli və cəsur gənclər üçün odlu səngərlərdə həyatın mənası Vətən torpağını və xalqımızı müdafiə etmək idi. Vətən andına son nəfəslərinədək sadiq qaldılar, döyüşçü şərəfini uca tutdular, müqəddəs şəhidlik zirvəsinə layiq oldular.

Daxili Qoşunların şəhid hərbi qulluqçularının siyahısında adı 78-ci sıra nömrəsi ilə qeydə alınmış əsgər Piriyev Malik Zəkulla oğlu 1973-cü il sentyabrın 20-də Yardımlı rayonunun Gügavar kəndində anadan olub. Piriyevlər ailəsi əslən bu kənddəndir. Sonradan ailə Biləsuvar rayonunun Əliabad kəndinə köçərək burada məskunlaşıb. Zəkulla Piriyev və Bibinaz Murtuzovanın (hər ikisi dünyasını dəyişib - Y.A.) qurduğu ailənin sonbeşiyi olan Malik valideynləri tərəfindən doğma yurdunu sevən, adət-ənənələrimizə sayğı göstərən,



zəhmətkeş və xeyirxah gənc kimi yetişdirilib. El-oba arasında hörmət qazanıb. O, Əliabad kəndindəki orta məktəbdə 8 il təhsil alıb. Müəllimlərinə də valideynlərinə münasibətdə olduğu kimi ehtiramla yanaşıb. Məktəbdə tərbiyəli şagird kimi xarakterizə olunub.

1987-1990-cı illərdə Malik rayondakı 146 saylı texniki-peşə məktəbinin kənddəki filialında təhsil alaraq, traktorçu-maşınçı ixtisasına yiyələnib. Hərbi xidmətə çağırılanadək öz əməyi ilə ailənin güzəranına kömək etməyə çalışıb.

Piriyevlər ailəsinin verdiyi məlumata görə, Malik 1992-ci ildə öncə yeni formalaşan ordu sıralarında, sonradan isə Daxili Qoşunların tərkibində hərbi xidmət keçib.

Daxili Qoşunların Arxivindən verilən 19.09.2019-cu il tarixli arayışda qeyd edilir ki, əsgər M.Piriyev 04.03.1993-cü il tarixdən Daxili Qoşunların 99713 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətə başlayıb, burada təlim məntəqəsinin atıcısı vəzifəsinə təyin olunub. 07.03.1993-cü il tarixdə isə Ağdam-Ağdərə bölgəsinə göndərilib. Ön cəbhənin bu istiqamətində qoşunların 15011 saylı hərbi hissəsinin (döyüş əməliyyatları getdiyi dövrdə fəaliyyət göstərib - Y.A.) tərkibində hərbi xidmətini davam etdirərək torpaqlarımızın müdafiəsində dayanıb. Malik döyüş tapşırıqlarını yerinə yetirərkən ölümlü-itimli anların şahidi olub. O, ləyaqətli əsgər olaraq, müharibənin məhrumiyyətlərinə öz iradəsi sayəsində dözüb, döyüş sınaqlarında hərbi anda sadiq qalıb.

1993-cü ilin fevral ayından düşmənin xarici havadarlarının dəstəyi ilə Ağdərə istiqamətində başlanan əks hücumu sonrakı aylarda genişlənərək Ağdam rayonu ərazisindəki müdafiə xəttində çox təhlükəli vəziyyət yaratmışdı. Ümumilikdə, Ağdam-Ağdərə bölgəsində o vaxt ağır döyüşlər gedirdi. Həmin ilin aprel ayının əvvəllərində Kəlbəcər rayonu işğal olundu. Bir neçə ay ərzində Ağdərədəki yaşayış məntəqələrinin, o cümlədən, Ağdam rayonunun əksər hissəsi Ermənistan silahlı qüvvələrinin nəzarəti altına keçdi.

1993-cü ilin iyun ayında Gəncədə baş vermiş faciəvi hadisələr və sonrakı proseslər nəticəsində xalqımızın vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qalması ölkəmizin düşmənin hərbi təcavüzündən müdafiə olunmasına ağır zərbələr vurdu. Yalnız Milli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə dövlətçiliyimizi xilas etmək, daxili qarşıdurmalara son qoymaq, xəyanətkar ünsürləri zərərsizləşdirmək, hərbi gücümüzü toparlayaraq düşmənə tutarlı cavab vermək mümkün oldu.

1993-cü ilin noyabr ayında Daxili Qoşunların 67987, 99713 və 25032 saylı hərbi hissələrinin şəxsi heyəti Füzuli rayonu ərazisində yerləşdirilərək, burada müdafiə mövqelərində dayanmışdı. Hərbi qulluqçularımızın qətiyyəti və mətinliyi sayəsində düşmənin bu istiqamətdə hücumlarının qarşısı alınıb. 1994-cü ilin yanvar ayının əvvəllərində keçirilən uğurlu Horadiz əməliyyatı



nəticəsində isə 67987, 99713 və 25032 saylı hərbi hissələrin şəxsi heyəti cəsurluqla düşmənin müdafiə xəttini yararaq Füzuli rayonunun bir çox yaşayış məntəqəsini işğaldan azad edib. Horadiz qəsəbəsi (hazırda şəhər statusundadır - Y.A.) və ətraf kəndlərin düşməndən geri alınması döyüş yolumuzun şərəfli səhifəsidir.

Əsgər M.Piriyev 1993-cü ilin noyabr ayından hərbi xidmətini 25032 saylı hərbi hissədə davam etdirib. O, bu hərbi hissənin tərkibində Füzuli rayonu ərazisində gedən döyüşlərdə iştirak edərək düşmənə qarşı qətiyyətlə vuruşub. Burada torpaqlarımızın işğaldan azad olunması və müdafiəsində bir döyüşçü kimi fədakarlıq göstərib.

1994-cü ilin yanvar ayının 27-də Horadiz ətrafında döyüş tapşırığını yerinə yetirərkən əsgər M.Piriyev düşmən gülləsindən ağır yaralanaraq şəhid olub. 29.01.1994-cü il tarixli ölüm haqqında şəhadətnamədə də bu barədə qeydlər var.

Şəhid hərbi qulluqçumuz Biləsuvar rayonu Xırmandalı kəndinin qəbiristanlığında dəfn edilib. Bu kənd Əliabad kəndinin qonşuluğunda yerləşir. Onun məzarı üzərində öldüyü gün deyil, dəfn tarixi həkk olunub.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02.03.1995-ci il tarixli müvafiq qərarı ilə Biləsuvar rayonu Əliabad kəndindəki orta məktəbə şəhidin adı verilib. Əsgər M.Piriyev kəndin ilk şəhididir.




Onu da qeyd edim ki, bu kənd bir neçə il əvvəl təmas xəttində şücaət göstərərək təkbaşına düşmənin onlarla hərbçisini məhv edən və yaralayan Milli Qəhrəman şəhid Mübariz İbrahimovun da doğma yurdudur.

Hər bir şəhidin xatirəsi bizim üçün əzizdir. Onların keçdiyi döyüş yolu vətənpərvərlik və qürur nümunəsidir. Həyatını Vətən naminə qurban vermiş Malik kimi oğulları xalqımız heç vaxt unutmayacaq.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

**P.S. Şəhid hərbi qulluqçumuz barədə məqalənin hazırlanması üçün məlumatların toplanmasında göstərdiyi köməkliyə görə mərhumun qardaşı Qüdrət Piriyevə təşəkkürümüzü bildiririk.**

*İdman*

## İDMANÇIMIZ TÜRKİYƏDƏN QALİB OLARAQ QAYITDI...

**Yola saldığımız 2019-cu ilin dekabr ayında Bakıda keçirilən sərbəst və yunan-Roma güləşi üzrə ölkə çempionatında birincilik qazanan Daxili Qoşunların İdman komandasının hərbi qulluqçusunun növbəti qələbə sorağı qardaş Türkiyədən gəldi.**

Belə ki, yanvar ayının 9-dan 11-dək Türkiyənin İstanbul şəhərində keçirilən sərbəst və yunan-Roma güləşi üzrə beynəlxalq turnirdə Daxili Qoşunların İdman komandasının əsgəri Əli Rəhimzadə ölkəmizi yenə də uğurla təmsil edib.

16 ölkədən 65 nəfərə yaxın idmançının iştirak etdiyi turnirdə 65 kq çəkidə özünü sınayan əsgər Ə.Rəhimzadə Türkmənistan və Türkiyə respublikalarının idmançıları ilə görüşdən qalib ayrılıb. Finalda gürcüstanlı rəqibini təmiz qələbə ilə ram edən cəngavərimiz 1-ci yerin sahibi olub.

Qeyd edək ki, əsgər Ə.Rəhimzadə 23 noyabr 1997-ci ildə Astara rayonunda dünyaya göz açıb. 2019-cu ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Astara Rayon Şöbəsindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. Hal-hazırda Daxili Qoşunların İdman komandasında atıcı-idmançı vəzifəsində xidmət edir. Sərbəst güləş idman növü üzrə idman ustasıdır. Respublika səviyyəli yarışlarda hakimlik etmək səlahiyyətinə malikdir. Azərbaycan milli yığma komandasının üzvüdür. Respublikada və xarici ölkələrdə sərbəst güləş növü üzrə keçirilən bir çox yarışın qalibi, eləcə də 2017-2018-ci illərdə Avropa və dünya çempionatlarının mükafatçısı olub. Dəfələrlə Azərbaycan çempionu adını qazanıb.




Qarşıda hərbi qulluqçumuzu Avropa çempionatı gözləyir. İnanırıq ki, bu yarışda da öz gücünü göstərəcək əsgərimiz bir daha doğma Azərbaycanımızın bayrağını şərəflə yüksəldəcək.

**baş leytenant Nigar Ağayeva**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Çin 2-ci aviadaşıyıcısını ordunun istifadəsinə verib



Çin Hərbi Dəniz Qüvvələri yerli istehsal olan yeni CV-17 "Şandun" aviadaşıyıcısını ordunun istifadəsinə verib. Ordu.az xarici KİV-ə istinadən xəbər verir ki, aviadaşıyıcının istifadəyə verilmə mərasimi Çinin Haynan vilayətinin Sanıya limanında baş tutub.

Xatırladaq ki, Çin Hərbi Dəniz Qüvvələri bu gəmini sıralarına qəbul etməklə aviadaşıyıcıların sayını 2-yə çatdırıb.

### Hindistan "Pinaka MK-II" YARS-ı sınaqdan keçirib



Hindistan Müdafiə Araşdırmaları və İnkişafı Təşkilatı (DRDO) təkmilləşdirilmiş "Pinaka MK-II" yaylım atəşli reaktiv sistemini sınaqdan keçirib. Bu barədə "AzeriDefence" DRDO-ya istinadən məlumat verib.

Təşkilatın açıqlamasına görə, "Pinaka MK-II" raket sisteminin sınaqları uğurla nəticələnib. İdarə olunan raketlərlə komplektləşdirilən "Pinaka" 75 kilometr məsafədən hədəflərə yüksək dəqiqliklə zərbələr endirməyə imkan verir.

*Sağlamlıq*

## Quru meyvələrin faydası

Soyuq fəsillərdə quru meyvələrə daha çox tələbat olur. Təbii yolla qurudulmuş meyvələrin tərkibində orqanizm üçün vacib maddələr var.

AZƏRTAC tibbi saytlara istinadla xəbər verir ki, quru meyvələr nə çox bərk, nə də əziləcək qədər yumşaq olmalıdır, çünki meyvə qurudulan zaman onun tərkibindəki nəmlik dərəcəsi 18-20 faizədək azalır. Bu isə o deməkdir ki, quru meyvə elastik və rahat yeyilən olmalıdır. Meyvənin üzərinin çox büzüşmüş olması onun düzgün qurudulmadığından xəbər verir. Həmin hal məhsulun keyfiyyətini aşağı salır.

Ərik qurusu həzm probleminə yaxşı təsir edir. Tərkibi bol miqdarda A, E, eləcə də B qrupu vitaminləri və kaliumla zəngin olan meyvə stressin də qarşısını alır, qan azlığını aradan qaldırır. Eyni zamanda, görmə funksiyasını yaxşılaşdırır, immuniteti gücləndirir.

Banan qurusu karbohidratlarla zəngindir və bir çox xəstəliyin dərmanıdır. Qan təzyiqini aşağı salır, hüceyrənin inkişafını, əzələ toxumasının tənzimlənməsini təmin edir, ürək döyüntüsünü normallaşdırır.



Gavalı qurusu da çox xeyirlidir. Tərkibində olan zəngin kalium və maqneziuma görə böyrək və revmatizm xəstəlikləri zamanı müsbət təsir göstərir, sümükləri möhkəmləndirir.

## Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı baş çavuş Fuad Quluzadəyə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar şurası **ehtiyatda olan mayor Elçin Məmmədovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

16075 saylı hərbi hissənin şəxsi heyəti **çavuş Adışirin Babayevin** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

25033 saylı hərbi hissənin şəxsi heyəti kapitan Anar Mustafayevə **qardaşının** vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17071 saylı hərbi hissənin şəxsi heyəti baş leytenant Sərxan Aydəmirliyə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17071 saylı hərbi hissənin şəxsi heyəti kiçik çavuş Qədir Seyidməmmədova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000